*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 430-437*
https://doi.org/10.62837/2024.4.430

**MAHİRƏ TAHİR QIZI HACIYEVA**
Filologiya üzrə fəlsəfə doktoru.
Azərbaycan Dillər Universiteti
**Email: mhacieva@adu.edu.az**
**ORCID ID: https://orcid.org/0000-0002-6922-4286**

# DİSTOPİYA BƏDİİ MƏTNLƏRİNDƏ İNSAN VƏ CƏMİYYƏT MÜNASİBƏTLƏRİ

**Xülasə**

Bədii distopiya, adından da göründüyü kimi, əsasən "pis yer" in təsviri olaraq qəbul edilir. Lakin bədii əsərlərin formalaşması müəyyən bir ideyanın təqdim olunması arzusuna əsaslanır. Distopiya əsərlərində bu ideya müəlliflərin dünyada gedən proseslərə münasibəti, dünyanın və insanlığın gələcəyi ilə bağlı düşüncələrindən qaynaqlanır. Tarixin qatlarından və müasir dövrdə, dünyanın fərqli bölglərində tüğyan edən müharibələr, şiddət, insanın təbiətə müdaxiləsi, texnoloji yeniliklərin oyatdığı qorxu bu düşüncələri əsasən təşvişə, narahatlığa bürümüşdür.

Sadalanan təhlükələrlə yanaşı insanı düşündürən əsas məqamlardan biri də, xüsusiyyətindən asılı olmayaraq, yaşadığı cəmiyyətdə insanın yeri, insanlararası münasibətlər və tənhalıq qorxusudur. Distopiya qəhrəmanları əsasən totalitar rejimlə və bu rejimə boyun əymiş cəmiyyətlə mübarizə aparmalı olur. Cəmiyyətdə əksəriyyət tərəfindən qəbul edilmiş qaydalara qarşı çıxmaq qəhrəmanı arzulanmayan, yad insana çevirir. İnsanlar qaydalara riayət etdikcə içərisində yaşadıqları dünyanın utopiya illuziyasına qapılaraq distopiya xarakterini heç hiss etməyə də bilərlər, bunun fərqinə vardıqda isə dərin məyusluqa üz-üzə qalırlar.

Tənhalığın başqa bir səbəbi isə müasir dünyada sosial münasibətlərin getdikcə zəifləməsi, insanalararası bağların qırılması, bu münasibətin texnoloji yeniliklərlə əvəzlənməsi kimi qorxulardan qidalanır. Distopiyanın xüsusilə bədii kino mətlərində müşahidə etdiyimiz bu aspekti bəzən şişirdilmiş görünsə də, dünyada gedən proseslərin işığında namümkün görünmür, buna görə də ciddi narahatlıq doğurur. Biz məqalədə distopiya əsərlərində, həm bədii ədəbiyyat həm də bədii kino mətnləri nümunələri əsasında insan və cəmiyyət münasibətlərini, xüsusilə toplumda tənhalaşan, yadlaşan obrazları təhlil edirik.

**Açar sözlər: insan, cəmiyyət, distopiya, yadlaşma, tənhalıq, mübarizə.**

**Yad qəhrəman obrazı.** Distopiya ədəbiyyatından söz açarkən ilk yada düşən G. Oruelin möhtəşəm "1984" (George Orwell, 1949) distopiyası və əsərin qəhrəmanı Uinstondur. Uinstonun yaşadığı cəmiyyət şəxsiyyətlərarası münasibətlərin dayaz və etibarsız olduğu bir cəmiyyətdir. İnsanlar qonşularına casusluq etməyə və hər hansı şübhəli davranışı səlahiyyət qurumlarına bildirməyə təşviq edilir. Bu dərin nəzarət, şübhə mühiti vətəndaşlar arasında təcrid hissinə səbəb olur, çünki həqiqi insan əlaqələri nadir və risk doludur. Uinston Smit yaşadığı cəmiyyətdən fərqli olaraq

Partiyanın totalitar rejiminə qarşı üsyankar düşüncələri və hərəkətləri ilə seçilir. O, fərqli düşüncəyə sahibdir və Partiyanın davam etdirdiyi manipulyasiya və yalanları dərk etməsi onu yaşadığı Okeaniyanın kollektiv şüurundan ayırır. Bundan başqa, Uinston distopiya cəmiyyətinin çərçivələri içərisində dərin emosional tənhalıq yaşayır. Ətrafındakı hər kəs kimi qəhrəmanın da düşüncələri və hissləri sıxışdırılır, heç kimlə həqiqi insani əlaqələri yoxdur. Uinstonun münasibət qurmaq cəhdləri, məsələn, Culia ilə münasibəti təhlükə ilə doludur və nəticədə onu tənhalıqdan xilas etmir. Uinstonun yaşadığı cəmiyyət ciddi müşahidə altındadır, buna görə də qəhrəman başqalarına etibar edə bilməz və bu amil onun təcrid olunmuş yaşayışının distopiya mahiyyətini daha da gücləndirir.

Bundan başqa, Uinstonun intellektual marağı, skeptisizmi onu cəmiyyətin qalan hissəsindən daha da təcrid edir. Qəhrəman Partiyanın təbliğatına şübhə ilə yanaşır və Okeaniyanın əsl tarixi kimi qadağan olunmuş məlumatlar tapmağa çalışır. Beləcə, həqiqət axtarışı onu partiyanın yaratdığı illuziyanı qorxudan və ya inanaraq, sorğu-sualsız qəbul edən cəmiyyətdən fərqləndirir. Bu cəmiyyətin yaşadığı fiziki mühit də yadlaşma duyğusunu sürətləndirir. Şəhər sökük binalar, izdihamlı yaşayış şəraiti və tənəzzüldən xəbər verən geniş, boş əraziləri ilə xarakterizə olunur. İnsanlar darısqal mənzillərdə yaşayırlar, rahat yaşayış şəraiti və vasitələrindən məhrumdurlar, daim bir çatışmazlıq, qıtlıq hiss edirlər, daim monitorların nəzarəti altındadırlar, hərəkətləri də məhdudlaşıb, düşüncələri də "İstənilən ictimai yerdə və ya teleekranın əhatə dairəsində olarkən düşüncələrinizin dolaşmasına icazə vermək çox təhlükəli idi. Ən xırda bir şey də sizi verə bilər, əsəbi tik, şüursuz bir narahatlıq görünüşü, öz-özünə mızıldanmaq vərdişi - anormallıq, gizlədəcək bir şeyin olmasına eyham vuran hər şey" [4, 79]. Partiyanın dilə təsiri, dili kasadlaşdırması insanların düşüncələrini də dar çərçivəyə salıb. Linqvistik manipulyasiya insanları öz şəxsi hiss və düşüncələrindən belə uzaqlaşdırıb. Rejim insanların reallığı dərk etməsini də manipulyasiya altına salıb. Belə bir şəraitdə fərqli düşünən, fərqli hisslər keçirməyi arzulayan Uinston kimi qəhrəmanın yadlaşması təəccüblü deyil. Bu xüsusiyyət Uinstonu dolğun bir distopiya qəhrəmanına çevirir. Bu qəhrəman nəinki hakimiyyət üçün düşməndir, elə cəmiyyətin içərisində də narahatlıq doğuran, arzulanmayan fərddir.

Oruelin qəhrəmanı rejimin diktəsini cəmiyyətə çatdıran işçilərdən biri, tarixin dəyişdirilməsi, tarixin Partiyanın gündəlik tələbinə uyğun yenidən yazılması ilə məşğul olan işçidir. Eynən "Fahrenheit 451" (Ray Bradbury, 1953) distopiyasının qəhrəmanı Qay Montaq kimi. Qay kitabların yandırılması ilə məşğul olan "yanğınsöndürən"lərdəndir. Başlanğıcda öz işini diqqətlə yerinə yetirən qəhrəman tədricən dövlətin senzurası və biliyin sıxışdırılması haqqında düşünməyə və bununla da iş yoldaşlarından, hətta öz evində həyat yoldaşından belə uzaqlaşmağa başlayır. Montaqın ətrafındakı insanlarla, hətta öz arvadı ilə belə münasibətlərinin boşluğunu və səthiliyini dərk etməsi onu yaşadığı mühitdə daha da təcrid edir. Montaqın fərdiliyə və həqiqətə doğru bu səyahəti onu vaxtilə yandırdığı kitablarda olan qadağan olunmuş bilikləri axtarmağa vadar edir. Oxuduqca və öyrəndikcə qəhrəman öz cəmiyyətinin konformist, dayaz təfəkküründən intellektual olaraq uzaqlaşır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 430-437*
Qəhrəmanın yeni kəşf etdiyi intellektual marağı onu həmyaşıdlarından fərqləndirir və onu müxalif təhlükələrə məruz qoyur, təcrid hissini getdikcə daha da dərinləşdirir.

Bundan başqa, Montaqın öz rolundan və cəmiyyətinin dəyərlərindən artan məyusluğu onunla ətrafındakılar arasında emosional məsafə yaradır. Qəhrəmanın emosional yadlaşması hökumətin nəzarət aparatının aşıladığı qorxu və paranoya ilə daha da güclənir, bu da ona başqalarına etibar etməyə və ya dəstək axtarmağa imkan vermir. Monteqin həqiqət, fərdilik axtarışı son nəticədə onu həyatının mənası və məqsədi ilə bağlı ekzistensial suallarla üzləşməyə vadar edir. Nəticədə qəhrəman zalım rejimə qarşı üsyan edib, bilik və azadlıq naminə hər şeyi riskə atır. Uinston kimi Montaqın da özünü kəşf etmə və öz müqəddəratını təyin etmə səyi qeyri-müəyyənlik və ekzistensial narahatlıqla doludur, çünki bu qəhrəmanlar azadlığı boğmağa çalışan bir dünyada fərdilik və öz yerlərini tapmaq üçün mübarizə aparırlar.

Hakslinin "Yeni cəsur dünya" (Aldous Huxley. Brave New World, 1932) distopiyasının qəhrəmanı Vəhşi Con da eynilə cəmiyyətə yadlaşma yaşayır. Distopiya cəmiyyətinin sərt sosial strukturundan uzaq böyüyən Con bu cəmiyyətin emosional dərinlikdən məhrum olduğunun, burada individual azadılığın çətçivələndiyinin fərqinə vara bilir. Bununla yanaşı, Con buradakı bihudə həzz dünyası və onun normalarına uyğunlaşmaq tələbi ilə qarşı-qarşıya qalır.

Qəhrəman həqiqi insani əlaqələr üçün darıxanda isə daxili konflikt yaranır. Bu düşüncələr artıq qəhrəmanı ani məmnunluq və dayaz həzz dünyasında yaşayan cəmiyyət içərisində tənhalaşdırır. Conun hissləri, düşüncələri və qatıldığı distopiya cəmiyyətinin tələbləri, gözləntiləri arasındakı zidiyyət sonda qəhrəmanın faciəsi ilə yekunlaşır.

M. Atvudun "Qulluqçunun nağılı" (Margaret Atwood. The Handmaid's Tale, 1985) distopiyasının qəhrəmanı Offred distopiya ədəbiyyatında müqavimət və daxili konfliktin bariz nümunəsidir. Offred bir çox distopiya qəhrəmanalrından fərqli olaraq cəmiyyətin əsl mahiyyətini elə ilk günlərdən dərk edir, sadəcə qorxu və tənhalıq qəhrəmanın hər hansı şəkildə münasibət bildirməsinin qarşısnı alır. Gileadın patriarxal cəmiyyətində Offred həddindən artıq təzyiq və nəzarətə məruz qalır, azadlığını və şəxsiyyətini təhqir edən bir rol oynamağa məcbur edilir. Onun müqavimət hərəkatında iştirakı, məsələn, digər qadınlarla münasibət qurması və qadağan olunmuş məlumatları gizli şəkildə paylaşması onun təzyiq dolu vəziyyəti passiv qəbul etməkdən imtina etdiyini nümayiş etdirir. Bununla belə, düşüncələri onun cəmiyyətdəki yadlaşma hissini də artırır, çünki Offred daim xəyanət ittihamı və cəza təhlükəsi ilə üz-üzədir.

Eyni zamanda, Offred fərdi azadlıq arzusu və cəmiyyətin təzyiqləri altında uyğunlaşmaq səyləri səbəbindəm daxili münaqişə yaşayır. Offred vaxtilə ona yaxsi tanış olan həyatın həsrəti ilə yaşayaraq Gileadın zülm dünyasında sağ qalmaq mübarizəsindədir. Bu daxili münaqişə onun üzləşdiyi daimi nəzarət və manipulyasiya, həmçinin keçmiş təcrübələrinin travması, ailəsinin, qızının xatirələri ilə daha da şiddətlənir. Offredin yaşadığı mühitin birdən-birə belə distopiyaya çevrilməsi qəhrəmanı dərin çaşğınlıq və sarsıntı içərisnə salsa da, Offred daim sağ qalmağın yollarını axtarmaqdadır, "Danışdıqlarımın bir hekayə olduğuna inanmaq

istərdim. Gərək belə düşünüm. Buna inanmalıyam. Bu şeylərin hekayə olduğuna inanların daha çox şansı var" [1, 45]. Bununla, Offred obrazı vasitəsilə Atvud müqavimət və uyğunlaşmaq arasındakı mürəkkəb qarşılıqlı əlaqəni təqdim edir, sistemli zülm qarşısında insan ruhunun möhkəmliyini vurğulayır. Sadalanan bu cəhətlər qəhrəmanı Oruelsayağı distopiya qəhrəmanı olmaqdan çıxarıb daha ümidverici, daha güclü bir obraza çevirir. Buna görəm də, Oruelin ümidsiz distopiyası heç bir çıxış yolu görmədiyi halda, Atvudun bu və digər distopiya romanları hər zaman müəyyən bir həll yolu, ümid yeri təqdim edir.

**Distopiyada tənhalıq.** Distopiya əsərləri spesifik mövzularla səciyyələnir. Butraya post-apokaliptik dünya, totalitar rejimin təzyiqi altında əzilən cəmiyyət, elmi-texnoloji yeniliklərin formalaşdırdığı robotlaşmış insanlıq kimi mövzular daxildir. Distopiya qəhrəmanları bir qayda olaraq tənhadır, toplumdan fərqlənir. Texnoloji yeniliklərin insanlıq hisslərini zəiflətdiyi distopiyalarda bu qaçılmaz bir aspekt olaraq ortaya çıxır. "O" (Spike Jonze. Her, 2013) filmində təsvirini tapan distopiya cəmiyyəti buna bariz nümunədir. Bu cəmiyyətdə texnoloji inkişafın müəyyən həddə çatdığı, insanlarla və binalarla dolu şəhər mühitində insanın dərin emosional ehtiyacı ödənmir. "O" distopiyasının qəhrəmanı Teador insanların davamlı sürətdə, müxtəlif texnoloji vasitələrlə ünsiyyət qurduğu futurustik dünyada yaşayır. Bu aləmdə dərin emosional sarsıntı keçirən qəhrəman tamamilə tənha və pərişan haldadır. Belə bir mühitdə onun münasibət qurduğu yeganə varlıq isə süni intellekt, Samantadır. Bununla da, distopiya izdihamlı bir dünyada tənha insan obrazının riqqətli təsvirini təqdim edir.

Bu mənada diqqəti cəlb edən daha bir möhtəşəm distopiya Lantimosun heyrətamiz "Omar" (Yorgos Lanthimos. Lobster, 2015) distopiyasıdır. Bu absurd distopiyada insanlar ya özlərinə yoldaşt tapmalı, ya da seçdikləri heyvanlara çevrilməlidirlər. Bu tələb distopiyada cəmiyyətin təzyiqi, normalara riayət etmək məcburiyyəti, qaydalara əməl edilməzsə insanların üzləşəcəyi faciəni göstərir.

Əsərin qəhrəmanı David bu sürreal dünyada tənhalıq qorxusu və ona qoyulan ictimai gözləntilərin absurdluğu ilə mübarizə apararaq məcburiyyətindədir. Onun bu zülmkar sistemin qadağaları daxilində sevgi tapmaq uğrunda mübarizəsi, cəmiyyətin formalaşdırdığı qəlibə sığmayanların çarəsizliyini və təcrid olunmuş yaşayış tərzini vurğulayır.

Digər distopiya əsərlərində olduğu kimi, "Lobster"də də tənhalıq distopiya cəmiyyətinin sərt strukturları və absurd qaydaları ilə daha da acınacaqlı hal alan insan vəziyyətinin əsas cəhəti kimi göstərilir. David obrazı vasitəsilə əsər, ictimai normaların absurdluğunu və fərdlərin öz azadlıqları və arzuları bahasına olsa belə, tənhalıqdan qaçmaq üçün hansı risklərə gedəcəklərini təsvir edir.

"Ülgüclə qaçan" (Denis Villeneuve. Blade Runner, 2017) distopiyası isə tənhalıq mövzusuna başaq bir baxış təqdim edir. distopiyada insanlar kimi süni intellekt də tənhadır və bunun əsas səbəbi emosional məsafədir. Bu dünyada insan replikantları insanalara xidmət etmək üçün yaradılıb, lakin öz azadlıqları və identiklikləri üçün mübarizəyə qalxmışdır. Bu amil onları dərin ekzistensial tənhalıq içərisinə atmışdır. Nəticədə, Roy Batty və Reyçel kimi replikantlar, onlara birdəfəlik

istifadə olunan mallar kimi baxan bir dünyada mənsubiyyət və məna hissi arzulayırlar. Onların emosional təcrid olunmağa qarşı mübarizəsi, empatiya və mərhəmətin az olduğu, yaşadıqları cəmiyyətin qeyri-insani təsirlərini əks etdirir.

Eynilə, əsərin qəhrəmanı, replikantları ovlamaq tapşırığı verilmiş Ofiser K, həmçinin Deckard, işinin təbiətilə əlaqəli olaraq özünəməxsus emosional təcrid hissi yaşayır. O, empatiyasını boğmağa və replikantlara sadəcə maşın kimi baxmağa məcbur olur ki, bu da onlarla qarşılıqlı əlaqədə mənəvi qeyri-müəyyənlik və emosional məsafə hissi yaradır. Distopiyadakı personajlar vasitəsilə əsər emosional təzyiqin nəticələrini və həqiqi insan əlaqəsinin olmamasından yaranan dərin tənhalığı təqdim edir. Distopiya tamaşaçıları başqalarına obyekt kimi yanaşmağın etik nəticələrini nəzərdən keçirməyə çağırır və həqiqi münasibətlərin inkişafında empatiya və mərhəmətin vacibliyini vurğulayır.

Gördüyümüz kimi, demək olar ki bütün distopiya əsərlərində qəhrəmanın cəmiyyətdə təklənməsi, tənhalıq hissi bir neçə amillə əlaqəlidir. Buraya əsasən münasibət həsrəti, icmada təklənmə, emosional məsafə kimi amilləri aid etmək olar. Distopiya toplumun yaşayış tərzidir, lakin sadaladığımız vəziyyət individual qəhrəmanalara aiddir, bir növ toplumun distopik həyat tərzi içərisində fərdi distopiya mühitində yaşayan individual insanların faciəsdiir. Cəmiyyət isə individual insanlardan ibarətdir, buna görə də yaşanan faciə əslində həm fərdi, həm də ictimai xüsusiyyət daşıyır. Burada Oruelin qəhrəmanını xüsusilə qeyd etmək istərdik, çünki Uinstonu digər distopiya qəhrəmanlandıran fərqləndirən əsas xüsusiyyət toplumda təklənmə, yadlaşma, hansısa bir icmaya mənsubluq hissinin itirilməsi ilə yanaşı dərin məyusluq və ümidsizlik hissidir. Demək olar ki, adlarını çəkdiyimiz bütün distopiya əsərlərində həm qəhrəman, həm də oxucu üçün müəyyən ümid qığılcımı var. Oruel isə bizi tamamilə qatı rənglərə bürünmüş, dərin məyusluğa çulğalanmış distopiya təqdim edir.

**Nəticə.** Nəticə olaraq qeyd edə bilərik ki, distopiya mətnlərində insan və cəmiyyət arasındakı əlaqənin tədqiqi yadlaşma və tənhalıq mövzularına dair maraqlı fikirlər təqdim edir. "1984", "Qulluçunun nağılı" və "Yeni cəsur dünya" kimi əsas əsərlərin, eləcə də "O" və "Omar" kimi müasir filmlərin təhlili nəticəsində aydın olur ki, distopiya əsərləri ilk növbədə ictimai strukturları və insan vəziyyətinin mürəkkəbliyini əks etdirir.

Bu mətnlər arasında personajlar fərdiliyin sıxışdırıldığı, emosional əlaqələrin zəiflədildiyi və uyğunlaşma təzyiqinin artdığı distopiya cəmiyyətlərinin zalım qüvvələri ilə mübarizə aparır. Uinston Smith, Offred və Con kimi qəhrəmanların yaşadığı dərin təcrid və tənhalıq hissi ictimai nəzarətin insanlıqdan kənarlaşdırıcı təsirlərini və həqiqi insan münasibətlərinin aşınmasını vurğulayır.

Bundan əlavə, "O" və "Omar" kimi müasir kino əsərlərinin daxil edilməsi distopiya mövzuları haqqında anlayışımızı genişləndirir, texnoloji irəliləyişlərin və sosial təzyiqlərin müasir kontekstlərdə özgələşmə və tənhalıq hissini necə formalaşdırmağa davam etdiyini göstərir. Distopiya mətnlərində insanlar və cəmiyyət arasındakı əlaqəni araşdıraraq, bu məqalə fərdi azadlıq və cəmiyyət nəzarəti, şəxsi istək və uyğunlaşma məcburiyyəti, insanın təbii münasibət və mənsubiyyət ehtiyacı

arasındakı əsas gərginliklərə işıq salır. Bu əsərlər vasitəsilə oxucular və tamaşaçılar zülmkar idarəetmə sistemlərinin nəticələri, sosial və texnoloji tərəqqi şəraitində insanlığımızı qoruyub saxlamağın vacibliyi haqqında tənqidi düşünməyə dəvət olunur. Nəhayət, distopiya ədəbiyyat və bədii kino mətnlərinin öyrənilməsi insan təbiətinin mürəkkəblikləri və daim dəyişən dünyada fərdi azadlıq və kollektiv rifah uğrunda davamlı mübarizə haqqında dəyərli fikirlər təqdim edir.

**MAHIRA HAJIYEVA**

## EXPLORING HUMAN AND SOCIETAL DYNAMICS IN DYSTOPIAN FICTION TEXTS

**Summary**

Fictional dystopias, often perceived as representations of grim realities, stem from authors' contemplations on global events, future prospects, and the essence of humanity. These narratives are deeply influenced by historical tumult, contemporary conflicts, environmental degradation, and the rapid pace of technological advancement. Within these dystopian landscapes, authors articulate their concerns and fears about the trajectory of society and the fate of humanity itself.

Central to dystopian narratives is the plight of protagonists who find themselves at odds with oppressive regimes and societal norms. This struggle inevitably leads to their isolation and alienation from mainstream society. Indeed, in the eyes of the majority, these protagonists become pariahs, challenging the status quo and disrupting the illusion of utopia that society clings to. As readers or viewers engage with these narratives, they are confronted with the disheartening realization that the world depicted therein may not be as far-fetched as it initially seems.

Moreover, these dystopian narratives shed light on the erosion of interpersonal connections and the rise of technological isolation in contemporary society. Despite the occasional exaggeration found in fictional portrayals, there remains a palpable concern about the diminishing quality of human relationships and the pervasive influence of technology. The portrayal of solitary and marginalized characters serves as a poignant reflection of the challenges faced by individuals navigating an increasingly fragmented and digitally-driven world. Through the lens of both literature and cinema, this article delves into the complexities of human and social relations in dystopian narratives, offering insights into the profound anxieties that underpin these fictional realms.

**Keywords: human, society, dystopia, alienation, loneliness, struggle.**

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 430-437*

**МАХИРА ГАДЖИЕВА**

# ИССЛЕДОВАНИЕ ЧЕЛОВЕЧЕСКОЙ И СОЦИАЛЬНОЙ ДИНАМИКИ В ТЕКСТАХ АНТИУТОПИЧЕСКОЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ

Вымышленные антиутопии, часто воспринимаемые как изображения мрачной реальности, проистекают из размышлений авторов о глобальных событиях, будущих перспективах и сущности человечества. Эти повествования находятся под глубоким влиянием исторических потрясений, современных конфликтов, деградации окружающей среды и быстрых темпов технологического прогресса. В этих антиутопических пейзажах авторы выражают свои опасения и опасения по поводу траектории развития общества и судьбы самого человечества.

Центральное место в антиутопических повествованиях занимает тяжелое положение главных героев, которые оказались в противоречии с репрессивными режимами и социальными нормами. Эта борьба неизбежно ведет к их изоляции и отчуждению от основного общества. Действительно, в глазах большинства эти действующие лица становятся изгоями, бросающими вызов статус-кво и разрушающими иллюзию утопии, за которую цепляется общество. По мере того, как читатели или зрители знакомятся с этими повествованиями, они сталкиваются с удручающим осознанием того, что изображенный в них мир может быть не таким уж надуманным, как кажется на первый взгляд.

Более того, эти антиутопические повествования проливают свет на эрозию межличностных связей и рост технологической изоляции в современном обществе. Несмотря на периодические преувеличения, встречающиеся в художественных образах, сохраняется ощутимая обеспокоенность по поводу снижения качества человеческих отношений и всепроникающего влияния технологий. Изображение одиноких и маргинализированных персонажей служит ярким отражением проблем, с которыми сталкиваются люди, живущие во все более фрагментированном и управляемом цифровыми технологиями мире. Через призму литературы и кино эта статья углубляется в сложности человеческих и социальных отношений в антиутопических повествованиях, предлагая понимание глубоких тревог, лежащих в основе этих вымышленных миров.

**Ключевые слова: человек, общество, антиутопия, отчуждение, одиночество, борьба.**

**İstifadə olunmuş ədəbiyyat.**

1. Atwood, M. The Handmaid’s Tale. London: O.W. Toad Limited, 1985, 320p.
2. Bradbury, A. Faranheyt 451. A. Bradbury, Miami: Flamingo, 1999, 240p.
3. Huxley, A. Brave New Worl. New York: HarperPerennial, 1998, 268p.
4. Orwell, G. 1984. London:Secker and Warburg, 1949, 326p.
5. https://tv.apple.com/us/movie/her/umc.cmc.4ky5qbtddgx232de23d3bqr6i
6. https://tv.apple.com/us/movie/thelobster/umc.cmc.53sd1btc65tto9igfxy3gorya
7. https://www.warnerbros.com/movies/blade-runner-2049

**Rəyçi: fil.f.d., dos. V.E.Ağabəyli.**